# Həsən Mahmudova həsr olunmuş elmi sessiya



2019-cu il mayın 6-da Bakı Dövlət Universitetinin yaranmasının 100 illiyi ilə bağlı Şərqşünaslıq fakültəsinin təşkilatçılığı ilə "Şərqşünaslıq fakültəsinin görkəmli alimləri" seriyasından professor Həsən Şıxmahmud oğlu Mahmudovun elmi-pedaqoji fəaliyyətinə həsr olunmuş elmi-praktik sessiya keçirilib.

Sessiyanı "Şərqşünaslıq fakültəsinin inkişafında professor Həsən Mahmudovun rolu" adlı məruzə ilə fakültənin dekanı professor Elxan Əzizov açıb. O, qeyd edib ki, Həsən Mahmudovun 1965-1977 illərdə Şərqşünaslıq fakültəsinin dekanı vəzifəsində çalışdığı müddətdə fakültədə bir sıra müsbət köklü dəyişikliklər aparılıb. Bu illər ərzində fakültənin müəllim heyətində də istər ixtisaslaşma, istərsə də pedaqoji fəaliyyət baxımından nəzərə çarpacaq dərəcədə bir oyanış müşahidə olunurdu.

İran filologiyası kafedrasının müdiri professor Mehdi Kazımov "Professor Həsən Mahmudovun elmi-pedaqoji fəaliyyəti" adlı məruzə ilə çıxış edərək alimin dünya iranşünasları siyahısında xüsusi yeri olduğunu, fəaliyyətini tam olaraq fars dilinin tədqiqinə və tədrisinə həsr etdiyini, onun nəinki Azərbaycanda, hətta keçmiş Sovetlər İttifaqında fars dili sintaksisi üzrə doktorluq dissertasiyası müdafiə etmiş ilk şərqşünas alim olduğunu vurğulayıb.

Sessiyada həmçinin AMEA Milli Azərbaycan Tarix Muzeyinin Numizmatika və Epiqrafiya şöbəsinin müdiri professor Əli Rəcəbli, BDU Şərqşünaslıq fakültəsinin Türk filologiyası kafedrasının müdiri professor Rüfət Rüstəmov, AMEA A.Bakıxanov adına Tarix İnstitutunun Mənbəşünaslıq və Tarixşünaslıq şöbəsinin müdiri professor Şahin Fərzəliyev, AMEA



Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyinin Komparativistika və bədii tərcümələr şöbəsinin müdiri, f.ü.f.d. Şəfəq Əlibəyli, BDU Şərqşünaslıq fakültəsinin İran filologiyası kafedrasının dosenti Əsmətxanım Məmmədova çıxış edərək alimin gözəl və alıcənab insan olmaqla yanaşı, həm də təcrübəli pedaqoq, bacarıqlı təşkilatçı olduğundan danışıblar və Həsən Mahmudovun Azərbaycan Şərqşünaslıq elmində silinməz bir iz qoyduğunu qeyd ediblər.

